**MƏTANƏT İSGƏNDƏROVA**
**Azərbaycan Dillər Universiteti**
**Təbriz küç 81 Nerimanov rayon**
**matanat-88@mail.ru**

# VOLFQANQ BORXERTIN YARADICILIĞINDA MÜHARIBƏ MÖVZUSU

Xülssə

Müharibə və sülh problemi bəşəriyyəti daim düşündürən məsələlər olmuşdur. Müharibələr həmişə xalqların həyatında dərin izlər buraxan, cəmiyyətin inkişafına güclü təkan verən amil olmuşdur. İkinci dünya müharibəsi Almaniya kimi güclü və qüdrətli bir dövləti həm maddi, həm də mənəvi cəhətdən darmadağın etsə də, yazarlar və ədəbiyyat üçün yeni mövzular gətirdi. Alman ədəbiyyatının ən parlaq səhifələrindən biri ikinci dünya müharibəsindən sonrakı dövrdür. Bu dövr alman ədəbiyyatında "Xarabalıq ədəbiyyatı" adlanır. İkinci dünya müharibəsinin Almaniyaya gətirdiyi bəlaları, ağır fəsadları, əhalinin keçirdiyi yoxsul həyat tərzini müharibədən sonra yaranmış bu ədəbiyyat özündə daha aydın şəkildə göstərirdi. İkinci dünya müharibəsindən sonra Almaniya ədəbiyyatı haqqında danışarkən biz burada "47-lər qrupu"-nun (die Gruppe-47) da adını qeyd etməliyik. Müharibənin ağrı acısını dadmış bu gənc yazarlar yaşlı nəsildən bəhrələnərək, ədəbiyyatda özlərinə məxsus bir istiqaməti yaratmışlar. V.Borxert Almaniya ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri kimi öz şeirləri, nəsr əsərləri və teatr parçaları ilə çox böyük şöhrət qazanmış və müharibədən sonrakı ədəbiyyatın ən məşhur simalarından biri olmuşdur. "Xarabalıq ədəbiyyatı "nı V.Borxert yaradıcılığı olmadan təsəvvür etmək olmaz. O, əsərlərində real sujetləri, real situasiyaları , real detalları əks etdirir və abstrakt səhnələri konkret, konkret olanları isə abstrakt şəkildə verirdi. Müharibədən sonrakı ədəbiyyatda onun adı ilə alman ədəbiyyatı tarixindən silinməyəcək yeni bir səhifə açıldı.

Açar sözlər: Müharibə, problem, ədəbiyyat, faciə, insan, psixologiya

Müharibə və sülh problemi bəşəriyyəti daim düşündürən məsələlər olmuşdur. İnsanlar sülhü həmişə ən böyük nemət və sərvət kimi qiymətləndirsələr də, uzun müddət müharibədən tarixi inkişafa güclü təkan verən, zənginliyə və hakimiyyətə aparan mühüm vasitə kimi istifadə etmişlər. Müharibələr həmişə xalqların həyatında dərin izlər buraxan, cəmiyyətin inkişafına güclü təkan verən amil olmuşdur. Bununla yanaşı bütün dövrlərdə, xüsusilə də xalqlar arasında münasibətlər siyasi xarakter kəsb etdikdən sonra insanların təsəvvürlərində sülh anlayışı da yüksək qiymətləndirilmiş, o, müstəqillik, suverenlik, təhlükəsizlik anlayışları ilə eyniləşdirilmişdir. XX əsrin 30-cu illərinin sonu üçün dünyada beynəlxalq vəziyyət yenidən olmazın dərəcəsində gərginləşmişdi. Yer kürəsində iki dünya müharibəsi baş vermişdir. Müharibələr bütün planeti əhatə etməsə də, dünaynın aparıcı ölkələrinin hamısı həmin müharibəyə qatılmışdır.Almaniya ikinci Dünya müharibəsinə kifayət qədər güclü bir dövlət kimi qatılmasına baxmayaraq bu müharibəni məğlub bir dövlət kimi tərk etdi *(398;2)* .

İkinci dünya müharibəsinin Almaniyaya gətirdiyi bəlaları, ağır fəsadları, əhalinin keçirdiyi yoxsul həyat tərzini müharibədən sonra yaranmış "Xarabalıq ədəbiyyatı" (Trümmerliteratur) özündə daha aydın şəkildə göstərirdi. Bu ədəbiyyat eyni zamanda "Müharibə ədəbiyyati", "Vətənə qayıdış ədəbiyyatı" kimi adlarla tanınırdı. Bu ədəbi cərəyanın nümayəndəsi olan yazıçı və şairlər öz əsərlərində ikinci dünya müharibəsi, bu müharibənin yaratdığı problemləri və sonrakı dövrdə əhalinin qarşılaşdığı çətinlikləri qələmə almışdılar. İkinci dünya müharibəsindən sonra Almaniya ədəbiyyatı haqqında danışarkən biz burada "47-

lər qrupu"-nun (die Gruppe-47) də adını qeyd etməliyik. 1947-ci ildə bir qrup yazıçı öz əsərlərini oxumaq məqsədi ilə bir yerə yığışdıqdan sonra yarandı və yazıçılar yaranan bu qrupu "47-lər qrupu" adlandırdılar. Bu dövrün yaşlı nümayəndələri gənc yazarlara örnək olurdular, gənc nəsil də onların irsinə hörmətlə yanaşırdılar *(8;29).* Yaşlı nəsildən bəhrələnən bu gənc yazarlar sonradan özlərinə məxsus bir üslubda fəaliyyət göstərməyə başladılar. Biz bu yazıçılar sırasında Qünter Qrass, Haynrix Böll, Arno Şmidt, Peter Rühmkorf və Volfqanq Borxertin adını qeyd edə bilərik. Onlar öz əsərlərində sabaha ümidliklə yanaşan, müharibədən sonrakı həyatda çətinliklərlə üzbəüz qalan əhalinin çətinliklərini, müharibənin ağrı-acılarını bütün dəhşəti ilə öz əsərlərində qeyd etmişdir.Bu yazarlar sırasında XX əsr alman ədəbiyyatının ən görkəmli nümayəndəsi Volfqanq Bolxertin xüsusi yeri vardır. V.Borxert Almaniya ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri kimi öz şeirləri, nəsr əsərləri və teatr parçaları ilə çox böyük şöhrət qazanmış və müharibədən sonrakı ədəbiyyatın ən məşhur simalarından biri olmuşdur. O, müharibədən sonra yaranmış "Xarabalıq ədəbiyyatı" (Trümmerliteratur) adlı cərəyanın ən görkəmli nümayəndələrindən biridir. Bu cərəyanın bir nümayəndəsi kimi V.Borxert də öz əsərlərində müharibədən sonrakı dövrün ictimai-siyasi və sosial vəziyyəti, eləcədə müharibə dövründə insanların çəkdiyi çətinlikləri qələmə almışdır.

"Xarabalıq ədəbiyyatı"nı V.Borxert yaradıcılığı olmadan təsəvvür etmək olmaz çünki, onun yaradıcılığı həmin dövrün mənzərəsini özündə geniş şəkildə əks etdirir. V.Borxert bu ədəbiyyatın görkəmli nümayəndələrindən biri olmuş və əsasən kiçik nəsr əsərlərinin, yəni hekayələrin müəllifi kimi tanınmışdır. V.Borxert bir çox qadağalara baxmayaraq öz yaradıcılığı ilə ədəbiyyat aləmində birinci olmağı bacardı. Heç kimin qələmə almadığı mövzulara müraciət edən yazıçının təsvir etdiyi səhnələr onun öz gözləri ilə gördüyü real təsvirlər idi.V.Borxert öz yaradıcılığı boyu həmişə öz əsərlərində real hadisələrin təsvirini vermişdir. O, öz yaradıcılığı ilə bəşər cəmiyyətinin məhvinə gətirib çıxaran müharibələrdən söz açırdı. V.Borxert çox gözəl başa düşürdü ki, bu müharibəni unutmaq və ya insanların yaddaşından silmək qeyri - mümkündür. Müharibə bütün dəhşəti ilə insanların yaddaşına, hafizəsinə, daxili aləminə təsir göstərmişdir.V.Borxertin həyatda qazandığı təcrübələr onu böyük yazar kimi yetişdirmişdir. Onun əsərlərində olan səslər, rənglər müəyyən bir fikrin simvoludur. Bir rəssam kimi o, əsərlərində real sujetləri, real situasiyaları , real detalları əks etdirir və abstrakt səhnələri konkret, konkret olanları isə abstrakt şəkildə verirdi.

V.Borxert 1947-ci ildə xəstə yatağında olarkən yazdığı "Qapının arxasında" (Drauβen von der Tür) dramı ilə alman ictimaiyyətinə tanınmışdır.Onun əsərləri özündə müharibələrdə, həbsxanaların və xəstəxanaların dörd divarları arasında acı çəkən insanların taleyini əks etdirir. Bu əsərlər əsgərlərin və vətəndaşların müharibə dövründə ruhi vəziyyətindən xəbər verir. Bu əsərləri oxumaq çox çətindir, çünki , V.Borxert yazdığı əsərlərdə müharibənin təsir gücünü, dəhşətli anlarını göstərmək üçün natamam cümlə və fikirlərdən istifadə etmişdir. V.Borxert yaradıcılığının ən gözəl nümunələrindən sayılan bu əsər 1947-ci ilin 2 fevral tarixində bu əsər drammaturq Ernst Şnabel tərəfindən qısaldılmış bir formada radio dinləyicilərinə təqdim olunmuşdur *(7;91).*

Müharibədən sonrakı ədəbiyyatda V.Borxertin adı ilə alman ədəbiyyatı tarixindən silinməyəcək yeni bir səhifə açıldı. Bu səhifədə V.Borxert amansız müharibənin yaratdığı bir şəraitdə həyat adlı yolda yürüyən insanların taleyini təsvir etmişdır.Bu müharibələr insanları həm mənəvi həm də fiziki cəhətdən məhvə aparırdı. Borxertin çox sayda hekayələri var ki, biz onları qəddar mövzulu hekayələr adlandıra bilərik çünki, bu əsərlərdə müharibədən sonrakı və əvvəlki həyatın qəddar həqiqətləri əks olunub. Lakin Borxert üçün son deyildir çünki, həyatda qəddarlıqla yanaşı mehribanlıq və səmimilik da vardır. O, bu kimi hisslərini özünün "Çörək", "Üç qara kral" əsərlərində təsvirini vermişdir*(14).*

Zəncirotu (Die Hundeblume) hekayəsi V.Borxertin 1946-cı il yanvarın 24-də qələmə

aldığı əsərdir. Bu əsər ilk dəfə 1946-cı ildə Hamburg Azad mətbuatında ictimaiyyətə təqdim olunmuşdur. Əsərdəki hadisələr bir həbsxanada cərəyan edir və əsas qəhrəmanı 22 yaşlı bir gəncdir. V.Borxert də məhz o yaş dönəmlərində həbsxana həyatı yaşamışdır. O, bu əsərdə öz həyatından milli–sosializm dövründə yaşadıqları avtobioqrafik xatirələri oxucularla paylaşmışdır. 22 yaşlı dustaq öz 432 nömrəli dustaq otağında xarici aləmdən özgələşmiş , yadlaşmış şəkildə günlərini keçirir. Bir dəfə həbsxanaya həyətinə gəzintiyə çıxarkən o, həyətdə otlar arasında bir zəncirotuna rast gəlir. Onu dərib su dolu bir qabda saxlayır. Bu güldən o, sanki, həyatın və təbiətin qoxusunu alır. Bu gül sevginin, dünyanın simvoludur. 1946 – cı ildə o, bir dostuna göndərdiyi məktubda yazır: “Əgər mən həbsxanaya düşməsəydim, “Zəncirotu” kimi bir hekayəni yazmayacaqdım*”(13;104*). Əsərdə V.Borxert müxtəlif üslub vasitələrdən istifadə etmişdir. Buraya metaforalar, metonimiyalar, təşbehlər daxildir. Bu vasitələr əsərin məzmunun oxucuya çatdırılmasında böyük rol oynayır. Rəng simvolikası da əsərə başqa bir rəng qatır. Sarı və boz rəng işıq, istinın simvolu kimi həbsxananın soyuğuna qarşı durur.

V. Borxertin digər ən məşhur hekayələrindən biri “Çörək” əsəridir. Əsər “Xarabalıq ədəbiyyatı ”na  çox gözəl bir nümunədir və özündə  müharibə dövrünün əsas motivlərini əks etdirir.Əsərdə baş verən hadisələr bir gecədə ,bir ailə daxilində cərəyan edir.Əsərin əsas qəhrəmanları yaşlı bir qadın və onun həyat yoldaşıdır. Qadın gecə yarısı mətbəxdən gələn bir səsə oyanır və həyat yoldaşının yanında olmadığını görür. Mətbəxə gedərək orada işığı yandırır və mətbəx stolunda çörək qırıntılarını görür.Bu əsər bizə ikinci dünya müharibəsindən sonra bir ailənin gündəlik həyat tərzi xatırladır və əhalinin necə səfalət, aclıq içərisində yaşadığı göstərir. Bir parça çörəyə görə gecə yarısı ayağa qalxan ailə başçısı öz hərəkərlərini həyat yoldaşından gizlətməyə çalışır. Gələn səsin küləyə aid olduğunu bildirir. Guya əsən külək çardaqda bu səsi yaradır. Bu isə insanın aclıq hissi qarşısında necə aciz olduğunu göstərir.Bir parça çörəyin çətin tapıldığı bir zamanda ailə üzvlərinə düşən çörək payı 3 dilim olmalı idi. Səhəri gün qadın öz həyat yoldaşına 3 dilim əvəzinə öz payından olmaqla 4 dilim verir. Əslində qadının da güclü aclıq hissi olmasına baxmayaraq o, bunu yoldaşından gizlədir. Onun həyat yoldaşına olan sevgisi aclıq hissinə qalib gəlir.

V.Borxertin digər bir hekayəsinə nəzər salaq. Bu “Uzun, uzun yollar boyunca” (Die lange, lange Strasse lang) hekayəsidir. Bu hekayədə V.Borxertin ,eləcədə digər alman yazıçılarının əsərlərində olmayan məqamlar var. Əsər qəhrəmanın monoloqundan ibarətdir.Bu əsərdə o,müharibə vaxtı öz əzizlərini itirmiş rus qadınlarının , xüsusilə analarının kədərli taleyini təsvir etmişdir. Müharibə amansız bir vasitədir. Burada itirilmiş ən qiymətli varlıq isə insandır. Kimin qələbə çaldığından asılı olmayaraq heç bir tərəf bu itkidən yan qaça bilməz. Bu əsərin əsas qəhrəmanını da düşündürən müharibənin saysız - hesabsız qurbanlarıdır. Əsərdə oxucuya xüsusilə təsir edən məqamlar var. Bu məqamlarda insanın öz vicdanına uyğun hərəkət etməsi göstərilir. Məs: Əsərin bir hissəsində əsgərlə silahsız bir qocanın qarşılaşması çox təsiredicidir. Bir anlıq silahsız qocaya əl qaldırmağa qalxan əsgər bu hərəkətindən daşınır çünki, gözləri qarşısına atasının siması gəlir. Bu qoca  onun atasının tam oxşarıdır. Əslində nə qədər düşmənə , faşist rejiminə nifrət bəslənilsə də ,sanki, bu nifrət hissi insanlığın olduğu yerə qədərdi. Əsil vətənpərvərlik, insanlıq millətindən, dinindən, dilindən aslı olmayaraq hər kəsi birləşdirən bir hissdir. Bu əsərdə insanları birləşdırən əsas hiss insanlıqdır. Əsərin digər  bir maraqlı anı qoca birinin döyüşdə 86 rus əsgərinin necə öldüruldüyünü təsvir etməsidir. Bu anı sanki, qocanın dili vasitəsilə V.Borxert özü oxuculara danışır. Çox güman ki, bu onun əsgərlikdə qarışlaşdığı epizodlardan biri ilə bağlı idi. Müharibənin ən dəhşətli tərəflərindən biri insanların gözü qarşısında baş verməsidir. Artıq bu hal insanlarda cəmiyyətdən təcrid olunma hissi yaradır, onlara əzab verir. Bunların nəticəsində insanların öz bacarıqlarını və özlərini inkişaf etdirmək hissi yarıda qalır. Həyat zəncirləri müəyyən bir məqamda qırılır.Yeni bir həyata başlamaq, təcrid olunduqları cəmiyyətə uyğunlaşmaq çox çətin bir prosesdir. V.Borxert

bütün mətinləri simvollarla, xüsusilə də rəngli simvollarla, əks cümlələr və hisslərlə nəzərə çatdırılır, bu əsərlərdə olan hərəkətlər müəyyən mühitdə təkrar olunur və müəyyən hissələrlə əvəz olunur. V.Bolxert əsərlərində verilmiş rənglər müxtəlif həyatı anları özündə əks etdirir. Məsələn: Yaşıl rəng həyatı, yaşamaq həvəsini qırmızı rəng sevgini, eyni zamanda müharibəni, mavi rəng gecə və soyuğu, sarı rəng isə həyatda olan yaşam qaydalarını özündə əks etdirir. Al-əlvan olmayan rənglər isə özündə neqativ təsvirləri cəmləşdirir. Boz rəng pessimistliyə, ağ rəng xəstəliyə işarədir , qara rəng isə bəd əlaməti, qaranlığı əks etdirir.

V.Borxertin digər maraqlı hekayələrindən biri "Mariya, hər şeyi o etdi" (Maria alles, Maria) hekayəsidir. Əsərdə V.Borxert yenidən həbsxana həyatına müraciət etmişdir. "Zəncirotu" əsərindən fərqli olaraq o, bu əsərində bir polyak qadın dustağın həyatından danışmışdır.Təsadüf nəticəsində sağ qalan qadın bunu müqəddəs Mariya ilə əlaqələndirir. O, öz dininə, xristianlığa çox bağlı bir insandır. Hər an İlahə Mariyanın şəklini üzərində gəzdirir.

V.Borxert ölümünə bir neçə həftə qalmış "Yalnız biri var" (Dann gibt es nur eins) hekayəsini yazmışdır və bu əsər onun öldüyü gün radioda səslənmişdir. Müharibə mövzusunun aparici olduğu bu əsərin əsas şüarı " Yox de! " -dır. O, bu şüarla müharibəyə yox demək istəyirdi. Qeyd etmək lazımdır ki, V.Borxertə həsr olunan xatirə abidələrinin çoxunun üzərində məhz bu şüar yazılmışdır. Əsər bu sözlərlə başlayır:

*"Sən. Bacarıqlı insan. Sabah onlar sənə əmr etsələr, nəyisə etməli olduğunu desələr, yalnız deyəcəyin bir şey var. Yox de!" (117:15)*

Müharibənin dəhşətli anlarını göz qarşısında əks etdirən hekayələirdən biri "Mətbəx saatı " (Küchenuhr) hekayəsidir. Bu hekayədə mətbəx saatından heç vaxt ayrıla bilməyən və ikinci dünya müharibəsində bombardman zamanı ana–atasını , evini itirən bir gənc oğlandan bəhs edilir. Evləri bombalanan zaman onu 20 yaşı var idi, amma siması qoca yaşlı təsiri bağışlayırdı. Oğlan öz anasına həddindən artıq bağlı idi və əsərdə onun anası haqqında olan xatirələrindən söz açılır. Hər gecə evə gec gələn gənc oğlan valideyinlərini , xüsusilə anasını oyatmamaq üçün , çalışardı ki , yavaş hərəkət etsin. Amma oğlunu səbirsizliklə gözləyən ana oyanar və oğluna yemək hazırlayardı. Bu hadisə hər gün saat üçün yarısına təsdüf edirdi. Ana yenə həmişəki görünüşündə idi: əynində jaket, çiynində şal və ayaqları yalın . Yarımçıq yuxudan oyanan ana diqqətlə oğluna tamaşa edərdi. Yuxusu gəlsə də yatmazdı. Bir gün evə gələn oğlan tamam başqa mənzərə ilə üzləşir. Evləri bombalanmış və yerlə bir olmuşdur Bütün ev dağılmışdı, anası isə bombardman zamanı ölmüşdü.Ona xatirə qalan yeganə əşya , əqrəbləri üçün yarsını göstərən xarab mətbəx saatı idi.Bu mənzərə qarşısında o, yalnız susurdu. Əldə qalan mətbəx saatının vasitəsi ilə o ,anasını xatırlayır və itirilən ailə həyatının , keçmişinin bir cənnət olduğunu dərk edir və anasının ölüm xəbəri qarşısında yalnız susurdu. Qısa hekayənin mərkəzi şəkli mətbəx saatıdır. O, bir obraz kimi bir - birinə zidd olan saysız fikilərin mərkəzində dayanır. Xarab mətbəx saatının çox sayda adlanması və onun gənc insan üçün mənası müxtəlif situasiyalarda verilməsiylə ortaya çıxır. Saatın yararsızlığını göstərməklə burada bir fikir ifadə edilir ki, artıq o cəmiyyətin istifadəsi üçün lazım deyil, belə ki, keçmiş vaxtı geriyə qaytarmaq -mümkün olmayacaq. İkinci dünya müharibəsindən ən çox əziyyət çəkənlərin uşaqlar olduğunu nəzərə alsaq, o zaman V. Borxertin əsərlərinin daha çoxunun uşaqlarla bağlı olması, onların taleyindən bəhs etməsi normal bir fakt kimi qəbul edilməlidir. Bu hekayələrindən biri "Siçovullar ki, gecələr yatır" ( Nachts schlafen die Ratten noch) hekayəsidir. 1947–ci ildə ortaya çıxan bu əsər, həmin ilin noyabrında V.Borxertin ikinci nəsr toplusu olan "Bu çərşənbə axşamında" dərc edilir.*(15)* Əsərin qəhrəmanı 9 yaşlı Yürqendir. İkinci dünya müharibəsi zamanı evləri bombalanan bu uşaq 4 yaşlı qardaşını itirir. Bu hadisə ona çox pis təsir göstərir və onun cəmiyyətdən təcrid olması ilə nəticələnir. O, insanlara olan inamını itirir. Hər gün qardaşının məzarına gedərək ona keşik çəkir çünki, məktəbdə müəllimlərindən birindən eşitmişdi ki, siçovullar ölü əti yeyir. Ona elə gəlirdi ki, siçovullar

onun qardaşının ətini yeyəcək. Ona görə də o, növbətçi əsgər kimi qardaşının keşiyini çəkirdi. Təsadüfən onunla rastlaşan biri ondan burda durmağının səbəbini soruşur. Sonra onu inandlrmağa çalışır ki, siçovullar da gecə yatır. Bundan sonra Yürqen oranı tərk edir.Bu dəhşətli hadisə balaca Yürqeni çox təsirləndirdi. Cəmiyyətdə gördüyü ədalətsizliklər onda inam hissini boğmuşdu. O, qardaşını heç vaxt tək buraxmaq istəmirdi. Bu onun insanlara qarşı olan inamsızlığından irəli gəlirdi. Müharibə cəmiyyətə mənəvi tərəflə yanaşı, maddi və sosial cəhətdən də ziyan vurur. İnsanların psixologiyası , yaşayış tərzi ilə yanaşı , dövlətin iqdisadiyyatına , maddi vəziyyətinə pis təsir göstərir. Müharibə nəticəsində yoxsulluq artır, yoluxucu xəstəliklər getdikcə genişlənir. Müəyyən müddət müharibə dövlətlərin inkişafında durğunluq yaradır. İnsanlar dövlət qarşısında duyduqları vəzifələrini yerinə yetirə bilmirlər. Uşaqlar təhsildən geri qalırlar. Təhsildən geri qalma gələcəkdə savadsızlığa və işsizliyə səbəb olur. Nəticədə onlar özlərini təsdiq etmək hüququndan məhrum olurlar.

İkinci dünya müharibəsinin digər mənfi cəhətlərindən biri də budur ki, o, insanları öz vətənlərindən, yurd yuvalarından uzaq salmışdı. Məhz bu hadisə nəticəsində yüzlərlə insan qərib ölkədə yaşamağa məcbur olmuşdur. Dövrün yazar və şairləri yad ölkədə mühacirət həyatı yaşamışdır. Soyuq qış gecələrində insanların ehtiyac duyduğu əsas vasitələrdən biri də odun idi. V.Borxert "Sabah uçun odun" (Das Holz für Morgen) hekayəsində ikinci dünya müharibəsi zamanı normal bir alman ailəsinin üzləşdiyi ehtiyacları və onun yaratdığı problemləri qələmə almışdır. Hekayənin əsas qəhramanı müharibə zamanı öz ailəsi ilə birlikdə çox çətin bir şəraitdə kirayədə yaşayan cavan bir oğlandı. Problemlərdən bezən bu gənc hər şeyin çıxış yolunu intihar etməkdə görür. Ancaq anasının ondan odun gətirmək istəyi buna mane olur. O, intihar etmək fikrindən əl çəkir. Bu hekayədə quru odun taxtası insan həyatının bir xilaskarı simvollaşdırılır. Əsərin əsas cəhtlərindən biri budur ki, o ikinci dünya müharibəsinə aid olan bir əsərdi və aid olduğu dövrlə tam səsləşir, oxucuda bu haqqda geniş təsəvvür yaradır. Əsərin əsas qəhramanı olan oğlan ikinci dünya müharibəsində bir əsgər kimi xidmət etmişdir və əsərdə baş verən hadisələrin ona aid olması, müharibənin vahiməsini və sonrakı təsirini oxucuya daha yaxşı çatdırmaqda kömək edir. Onun yazıb yaratdığı "Xarabalıq ədəbiyyatı" dövrü uzun bir dövrü əhatə etməsə də alman ədəbiyyatının ən vacib dövrlərindən biri sayılır. Onun əsərlərinin əsas tədqiqat mövzusu ikinci dünya müharibəsi zamanı insanların, xüsusi ilə az yaşlı uşaqların faciələri, keçirdikləri hiss və həyəcan, eləcədə bu müharibənin onların psixologiyasında yaratdığı problemlər idi.1945-ci ildə artıq müharibə bitmişdi. Müharibədən güclə can qurtaran sadə xalq indi də onun ağır nəticələri ilə üzbəüz qalmışdı. Müharibənin dəhşətli günlərini unuda bilməyən insanlar, indi onun nəticələrini aradan qaldırmaq üçün yollar axtarırdılar. (22)

İkinci dünya müharibəsi Almaniya kimi güclü və qüdrətli bir dövləti həm maddi, həm də mənəvi cəhətdən darmadağın etsə də, yazarlar və ədəbiyyat üçün yeni mövzular gətirdi. Müharibədən öz evlərinə geri qayıdanlar yeni bir dünyanın yaranacağına ümid bələyərkən, müharibənin ağri-acıları, bəlaları ilə üz-üzə qaldılar. Ümidləri puç olmuş insanlar yenidən güc toplayaraq özlərinə yeni həyat qurmağa cəhd etdilər. Amma bu sınaqdan qalib ayrılmaq heç də həmişə uğurlu olmurdu. Onlar bəzən ağır sınaq qarşısında aciz qalırıdlar.Müharibəni yaşayanlar üçün bu hadisələr sanki, dünən baş vermiş kimidir. V.Borxertin əsərlərinin qəhrəmanları da bu hadisələrin canlı şahidi olmuş real insanlardır.

Ədəbiyyat

Azərbaycan dilində
1.Alman ədəbiyyatı antalogiyası.Bakı-2006
2. Şirəliyev Həsən və Əhmədov Əli; "Politologiya", "Elnur -P"nəş:Bakı-1997
3. Quliyev Qorxmaz; XX əsr ədəbiyyatşünaslıq konsepsiyaları,"Çaşıoğlu" nəş; Bakı-2012

Alman dilində

4. Germanistisches Jahrbuch für Estland, Lettland und Literatur,DAAD-2002
5.Hans Mayer: "Deutsche Schriftsteller und Bücher" , "Siedler Verlag", Berlin -1998
6.Horst Dieter Schlosser "Deutsche Literatur","Taschenbuch Verlag",München -1983
7."İnterpretationen zu Wolfgang Borchert" München-1962
8. Literarische Gesellschaften in Deutschland: "Aufbau Verlag",Berlin-1995
9. Rodolf Wolff "W.Borchert, Werk und Wirkung",1975
10."Literatur der Weimarer Republik 1918- 1933" ,"Hans Verlag", München-1968
11. "Notwendige Geschichten 1933-45", "Piper Verlag",München 1969
12.Wolfgana Borchert; "Die traurigen Geranien" ; "Rowohlt Verlag"; Hamburg-1962
13.W.Borchert; "Das Gesamtwerk"; "Rowohlt Verlag" ;Hamburg-2002

İnternet resusları

14.de.wikipedia.org
15.www.vikipediya.az
16.www.google.az
17.www.google.de
18. translate.google.com
19. wolfgangborchert.org
20. uni-potsdam.de
21. www.geschichte-projekte-hannover.de
22.www.abipur.de/referate

Матанат Исгандарова Сарваз

Тема война творчество Вольфганга Борхертина

Резюме:

Человечество всегда рассуждало о проблемах войны и мира. Война все время оставляла глубокий след в жизни народов и давала толчок для для развития общества. Хоть война и нанесла моральный и материальный ущерб такой сильной и несокрушимой стране, как Германия, но несмотря на это, дала пищу для размышления писателям и литературе. Неизгладимый след в немецкой литературе оставил период после Второй мировой войны. В немецкой литературе этот период называется "Литературой руин". В этой литературе ярко выразились тяжелые последствия, бедственное положение и плохой образ жизни людей в Германии, которые были вызваны в резулътате II мировой

войны. Если речь идет о немецкой литературе, то следует упомянуть о "Группе 47". Испытавшие всю горечь войны, эти молодые писатели, создали свое направление в литературе. Одним из известных представителей немецкой литературы, прославившийся после войны своими стихами, произведениями и пьесами является В.Борхерт. "Литературой руин" невозможно представитъ без творчества В. Борхерта. В его работах отображаются реалъный сюжет, ситуации и детали, где конкретные сцены представяются в абстрактной форме, а абстрактные в конкретной. В послевоенной литературе с именем В. Борхерта открылась новая страница в истории немецкой литературы.

Ключевые слова: Война, проблема, литература, трагедия, человек, психология

Matanat Isgandarova Sarvaz

The theme of war is in the work of Wolfgang Borchert

Summary:

Mankind has always talks about the problems of war and peace. War always leaves a deep mark in the life of nations and gave impetus to the development of society. Although the Second World war devastated a strong and invincible country like Germany in both material and moral way, it brought new topics for writers and literature. One of the most prominent pages of the German literature ist the period after the second World war. In German literature this period is called "the ruins of the literature.

This literature, organized after the war, reflected the misfortunes brought by the second World war to Germany, the poor living conditions of the people more clearly. While talking about the German literature after the second world war, we should also mention the name of the 47s Group. Having experienced the bitterness of war, these young writers created their own trend in literature. One of the prominent representatives of German literature, became famous after the war for his poems, works, and plays - V.Borhert. It is impossible to imagne “The ruins literature” without the works of V.Borxert. He reflected real plots, real situations, real detals and showed abstract scenes real and concrete ones abstract. In the post-war literature there opened a new page in the history of German literature with the name of Borchert .

Keywords: War, problem, literature, tragedy, people, psychology

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 04.08.2019
Filologiya elmləri doktoru, dosent Nilufər Məmmədzadə tərəfindən çapa tövsiyə olunmuşdur.